# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Azərbaycan vətəndaşlarına seçmək və seçilmək üçün hər cür şərait yaradılıb

### Müsahibimiz Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimovdur



***– Ramiz müəllim, ölkəmizdə demokratik dəyərlərin, beynəlxalq standartların bərqərar olmasına xüsusi diqqət yetirilir, seçki sistemi ildən-ilə təkmilləşdirilir, vətəndaşların seçmək və seçilmək hüququnun yüksək səviyyədə təmin olunması istiqamətində əlverişli şərait yaradılır.***

– Azərbaycan vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumlarda iştirak etmək hüquqları Azərbaycan Respublikasının Konstitusiyasının 56-cı maddəsində təsbit olunub. Vətəndaşların seçmək və seçilmək hüquqlarının təmun edilməsini Azərbaycan Respublikasının Seçki Məcəlləsi tənzimləyir. Bu sənəddə ölkəmizdə keçirilən bütün seçkilər və referendumlarla bağlı məsələlər öz əksini tapıb. Belə ki, Seçki Məscəlləsində seçkilərin hazırlanması və keçirilməsi Mərkəzi Seçki Komissiyasına həvalə edilib. MSK da, öz növbəsində, yüksək seçki orqanı olmaqla, Seçki Məcəlləsində nəzərdə tutulan məsələlərin eyni qaydada tətbiq olunması üçün müvafiq təlimatlar, izahlar hazırlayır və bütün dairə seçki komissiyalarına çatdırır. Belə normativ hüquqi xarakterli sənədlər seçkilərin və referendumların keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Elə son dövrlərdə keçirilən seçkilər də göstərir ki, MSK tərəfindən təşkil olunan maarifləndirmə tədbirləri nəticəsində ölkə vətəndaşlarının hüquqlarının daha yaxşı, daha dolğun təmin edilməsi üçün görülən tədbirlər öz nəticəsini verib.

2018-ci ildə keçirilən Azərbaycan Respublikası prezidentinin seçkilərində, demək olar ki, seçki qanunvericiliyinin pozulmasl ilə bağlı şikayət daxil olmamışdır. Bu da onu göstərir ki, Seçki Məcəlləsinin tətbiqi ilə əlaqədar görülən işlər və aparılan maarifləndirmə tədbirləri öz bəhrəsini verir. 2019-cu ildə keçirilən bələdiyyə seçkilərində də bunun şahidi olduq. Həmin vaxt Seçki Məcəlləsinə uyğun olaraq, bələdiyyələrə namizədlərin irəli sürülməsi, namizədliyin qeydə alınması, təşviqat kampaniyasının aparılması, sonda isə səsvermələrin nəticəsinə dair protokolların tərtib edilməsi mərhələləri göstərdi ki, artıq ölkəmizdə seçkilərin Konstitusiyaya uyğun keçirilməsi, Seçki Məcəlləsinin tələblərinə tam riayət edilməsi məsələsi ön sırada dayanır və bunun nəticəsində də insanların seçki hüquqları qanunvericiliklə təmin olunur. Mərkəzi Seçki Komissiyası da bu məsələləri daim diqqətdə saxlayır.

Yeri gəlmişkən, qeyd edim ki, ötən ilin sonlarında keçirilən bələdiyyə seçkiləri çox əhatəli bir seçki idi. 1606 bələdiyyəyə 15 min 156 üzv seçilməli idi. Bələdiyyəyə seçilmək istəyənlərin sayı isə 40 min nəfərdən çox idi. Onların hər birinə qanunvericiliyin tələbləri səviyyəsində şərait yaradılmışdı. Bu fakt son illər ölkəmizdə keçirilən seçkilərə marağın ildən-ilə artdığını bir daha təsdiqləyir. Biz bunu bu il fevralın 9- da keçiriləcək parlament seçkiləri ərəfəsində də açıq şəkildə görürük.

***– Söhbət parlament seçkilərindən düşmüşkən, hazırda bu sahədə hansı işlər görülür?***

– Bugünlər seçkilərə hazırlığın qızğın çağıdır. Deputat mandatı qazanmaq istəyən hər bir ölkə vətəndaşına qanunvericiliyin tələblərinə uyğun olaraq, əlverişli şərait yaradılıb. Bildiyiniz kimi, Milli Məclisə seçkilər həmişə həm ölkə daxilində, həm də respublikamızdan kənarda böyük maraqla izlənilir. Mərkəzi Seçki Komisiyası digər seçkilərdə olduğu kimi, parlament seçkilərinə də ciddi hazırlıq görür. Belə ki, dairə və məntəqə seçki komssiyalarının üzvləri üçün maarifləndirmə tədbirləri həyata keçirilir. Bundan başqa, MSK üzvləri televiziya kanallarında və digər kütləvi informasiya vasitələrində çıxışlar edir, ali icra hakimiyyəti orqanlarının işçiləri, hakimlərin iştirakı ilə beynəlxalq təşkilatlarla birlikdə tədbirlər keçirilir, eyni zamanda, vətəndaşların seçki hüquqları barəsində mütəmadi məlumatlar verilir. MSK kütləvi informasiya vasitələri ilə müntəzəm əməkdaşlıq edir, bütün iclaslarında media üzvlərinin iştirakına şərait yaradır, qəbul etdiyi qərarların dərc olunması üçün mətbu orqanlara göndərilməsini təmin edir. Namizədlərin öz təbliğatlarını ödənişli və ödənişsiz əsaslarla aparılması üçün də kütləvi informasiya vasitələrində şərait yaradılıb. Bundan əlavə, vətəndaşlardan daxil olmuş şikayətlərin araşdırılması ilə əlaqədar ekspertlərdən ibarət qrup yaradılıb. Bütün bunlar seçkilərdə baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması və dərhal tədbir görülməsi məqsədini daşıyır. Belə tədbirlər, həmçinin demokratik şərait əhalinin seçkilərə olan marağını daha da artırıb.

***– Bunu faktlarla əsaslandıra bilərsinizmi?***

– Əlbəttə, Milli Məclisə seçkilər birmandatlı seçki dairələri üzrə keçirilir. Məlum olduğu kimi, respublikamızda 125 seçki dairəsi fəaliyyət göstərir və hər dairə üzrə bir deputat seçilir. 125 seçki dairəsini 5 min 573 seçki məntəqəsi əhatə edir. Bu məntəqələrdən 5 min 442-si daimi fəaliyyət göstərir, 131-i isə müvvəqqəti yaradılan seçki məntəqələridir. Eyni zamanda, parlament seçkilərinə start verilən vaxtdan, yəni ölkə Prezidentinin bununla əlaqədar imzaladığı məlum sərəncamdan sonra namizədlərin irəli sürülməsi mərhələsi başlanıb və həmin mərhələdə 2 min 431 nəfər öz namizədliyini irəli sürüb. Bu, Azərbaycanın müstəqillik tarixində rekord göstəricidir. 2 min 247 namizəd imza vərəqələri götürüb. İmza vərəqələrini götürənlərdən 1774 namizəd həmin imza vərəqələrini digər zəruri seçki sənədləri ilə birlikdə dairə seçki komissiyalarına təhvil verib. Bilirsiniz ki, hər bir deputatlığa namizədin müdafiəsi üçün 450 etibarlı imzanın toplanılması tələbi Seçki Məcəllsində öz əksini tapıb. Namizədin qeydə alınması üçün imza vərəqələrinə müvafiq sənədlər də əlavə olunur. Bunlar namizədin seçkilər elan olunmamışdan bir il əvvəlki dövr üçün gəlirləri, eyni zamanda, əmlakları və digər tələblərlə bağlı sənədlərdir. Bu sənədlər toplanılır, təqdim edilir və dəqiqləşdirimə aparıldıqdan sonra təsdiqlənir. Bütün bu proseslərdən sonra 1637 nəfərin deputatlığa namizədlyi qeydə alınıb.

***– Seçkiyə hazırlıqla bağlı daha hansı işlər görülür?***

– Məlumdur ki, parlament seçkilərinə sayılı günlər qalıb. Hazırda təbliğat-təşviqat dövrüdür. Təəssüf ki, qeydə alınan namizdələrin hamısı sona qədər mübarizəni davam etdirə bilmədi. Onların bəziləri öz istəyi ilə namizədliklərini geri götürdülər. Əlbəttə, səbəbini özləri daha yaxş bilir. Görünür, mübarizəni sonadək aparmaq gücündə deyillərmiş. Hər halda, bu, onların şəxsi işidir. Son məlumata görə, 1324 nəfər mandat uğrunda mübarizəni davam etdirir. Məlum olduğu kimi, bu il yanvarın 17- dən təbliğat-təşviqat kampaniyasına start verilib və mövcud qanunvericiliyə görə fevralın 8- də saat 8- 00 –da, səsverməyə 24 saat qalmış dayandırılacaq. Hazırda onların seçiciləri ilə görüşməsi, platformalarını və plakatlarını yaymaq üçün hər cür şərait yaradılıb. Məlum olduğu kimi, hər seçki məntəqəsinin yaxınlığında, əhalinin gur olan yerlərində, ümumilikdə, 10 mindən çox dəmir lövhələr quraşdırılıb. Bir neçə ildir ki, bu üsuldan istifadə olunur və çox yaxşı da səmərə verir. Həmin lövhələr yalnız deputatlığa namizədlərin təbliğat-təşviqat kampaniyası aparmaları üçündür. Əvvəllər namizədliyi qeydə alınanlar hara gəldi şəkillərini yapışdırırdılar. Bu, həm narazılıq yaradır, həm də rayonun, şəhərin ümumi görünüşünə xələl gətirirdi. Seçkidən bir müddət sonra da həmin şəkillər mağazaların vitrinlərində, binaların qarşısında və digər yerlərdə qalırdı. Bu da təşviqat kampaniyasının pozulması demək idi. Bu baxımdan, dəmir lövhələrin yerləşdirilməsi çox əlverişlidir.

Namizdələrə seçiciləri ilə görüşmək üçün 125 seçki dairəsi üzrə 272 (136 - sı qapalı, 136- sı isə açıq) görüş yerləri müəyyənləşdirilib. 5 min 442 seçki məntəqəsinin hər biri seçkiyə tam hazırdır. Seçki məntəqələri dəqiqləşdirilmiş seçici siyahılarından tutmuş digər zəruri avadanlıqlara qədər təmin olunub. Bütün bunlar seçkilərin şəffaf, demokratik, azad və ədalətli, tam qanunauyğun keçirilməsinə yaradılan şəraitdir.

***– Şəffaflığın təmin olunması istiqamətində görülən işlər barəsində də məlumat verməyinizi xahiş edirik.***

– Seçkiyə start verilən gündən seçki prosesi başa çatana qədər şəffaflığın təmin olunması diqqət mərkəzində saxlanılır. Bu, ən ümdə vəzifə kimi qarşıya qoyulan mühüm məsələlərdən biridir. Beynəlxalq aləmə də bəllidir ki, Azərbaycanda keçirilən seçkilər zamanı şəffaflıq və aşkarlıq tam təmin olunur. Bu sahədə hər hansı bir problem yarana bilməz. İlk növbədə, müşahidəçilər missiyasına əlverişli şərait yaradılır. Yerli müşahidəçilər ərizəyə iki şəkil əlavə etməklə, Mərkəzi Seçki Komissiyasına müraciət edir və bir neçə gündən sonra müşahidəçi statusu verən xüsusi lövhəciyi əldə edirlər. Beynəlxalq müşahidəçilər üçün də ciddi problem yoxdur. Qeyd edim ki, builki parlament seçkilərini izləmək üçün 54 ölkədən 56 beynəlxalq təşkilat müraciət edib. Bu vaxta qədər 900-ə yaxın beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Yerli müşahidəçilərin sayı isə 65 minə yaxındır. Müşahidəçilərin qeydə alınması prosesi davam etdiyindən bu göstəricilər daha çox olacaq. Bütün seçki məntəqələri üzrə müşahidə aparmaq istəyində olanların sayı 4 min 264 nəfərdir. Mərkəzi Seçki Komissiyası həm beynəlxalq, həm də yerli müşahidəçilərin sayının çox olmasında maraqlıdır. Çünki seçki prosesində baş verən neqativ hallar məhz müşahidəçilər tərəfindən aşkarlanır. Bu da ümumi işimizə köməkdir.

Məlum olduğu kimi, 2008- ci ildən başlayaraq, ölkəmizdə keçirilən seçkilərdə “exit-poll” sorğuları da aparılır. Builki seçkilərdə də beş təşkilat qeydiyyatdan keçib. Dünya seçki sistemində də seçki ilə məşğul olan təşkilatların “exit-poll” keçirmək hüququ var. Təbii ki, onlar qanunvericilik çərçivəsində müəyyənləşdirilmiş vaxtda Mərkəz Seçki Komissiyasına müraciət edir və MSK- da, öz növbəsində, araşdırma apardıqdan sonra həmin təşkilatları qeydiyyata alır. Artıq 5 belə təşkilat parlament seçkilərində “exit-poll” keçirmək üçün müraciət edib və qeydiyyatdan keçib. Həmin təşkilatlar bunlardır: Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının “AJF&Associates İnc.” təşkilatı (ABŞ) ilə birgə, Rəy Monitoqrinq Mərkəzi, “İnsan Hüquqları XXI əsr – Azərbaycan Fondu” və Fransanın “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu. Bu təşkiatlardan bəziləri indiyədək ölkəmizdə bir neçə dəfə “exit-poll” keçiriblər.

Aşkarlığın təmin olunmasında veb-kameralardan istifadə xüsusi qeyd edilməlidir. Bu, Azərbaycan brendidir. Çünki dünyada ilk dəfə veb-kameralardan məhz Azərbaycanda istifadə olunub. Artıq 11 ildir ki, bu üsuldan istifadə olunur və çox yaxşı effekt verir. Ölkəmizdə seçki prosesini izləyən beynəlxalq müşahidəçilər veb-kameraları ilk dəfə görəndə xeyli təəccübləndilər. Həmin kameraların funksiyaları ilə yaxından tanış olandan sonra bunu şəffaflığın və aşkarlığın təmin olunmasında ən yaxşı üsul hesab etdilər. Bu, həm də Prezidentin seçkilərin şəffaf və demokratik keçirilməsi, aşkarlığın təmin olunması üçün yaratdığı əlverişli şərait kimi qiymətləndirilir. Məlum olduğu kimi, respublika üzrə 1000 seçki məntəqəsində belə kameralar quraşdırılıb. Bizdə olan məlumata görə, bələdiyyə seçkiləri zamanı veb-kameralar vasitəsilə dünyanın müxtəlif ölkələrindən 100 mindən çox izləmə qeydə alınıb. Veb-kameraların bir əhəmiyyəti də odur ki, həmin seçki məntəqələrində yaranmış mübahisələr, deyilən nöqsanlar kameraya baxışdan sonra dəqiq araşdırılır. Buna baxmayaraq, vətəndaşların ərizə və şikayətlərinə baxılması məqsədilə Mərkəzi Seçki Komissiyasında 9 nəfərdən ibarət ekspert komissiyası yaradılıb. Daxil olan şikayətlər həmin qrup tərəfindən Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş müddətdə araşdırılır, rəy verilir və MSK-nın iclasında baxılır. Şikayətçilərin özlərinin və nümayəndələrinin iştirakı həm ekspert qrupunun araşdırmasında, həm də MSK-nın iclasında iştirakı təmin edilir. Bu da seçkilərin keçirilməsində maraqlı olan şəxslərin hüquqlarının qorunması məqsədini daşıyır. Namizədlərin qeydə alınması və digər hallarda yaranmış mübahisələrin araşdırılması zamanı kütləvi informasiya vasitələrinin əməkdaşlarının da iştirakına şərait yaradılır.

MSK bütün kütləvi informasiya vasitələri, o cümlədən “Xalq qəzeti” ilə sıx əməkdaşlıq edir. Açığı, qəzetinizdə seçki prosesinin işıqlandırılmasından məmnunuq. Demək olar ki, hər nömrədə seçki ilə əlaqədar məlumatlar, məqalələr dərc olunur. Bu da şəffaflığın, eləcə də maarifləndirmənin təmin olunmasına bir töhfədir. Elə bu müsahibəmizin özü bir sıra məqamların, seçicilərin, həmçinin geniş oxucu kütləsinin diqqətinə çatdırılması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Göründüyü kimi, ölkəmizdə seçkilərə ildən – ilə maraq, fəallıq daha da artır. Bunun əsas səbəbi ölkə Prezidentinin demokratik və şəffaf seçki keçirilməsində siyasi iradə nümayiş etdirməsi, seçib- seçilmək üçün siyasi mövqeyindən asılı olmayaraq hər bir kəsə bərabərhüquqlu, əlverişli şəraitin yaradılmasıdır. Seçkiöncəsi proseslərdə bu, özünü daha açıq şəkildə büruzə verir. Şübhəsiz ki, seçki günü isə daha bir demokratik və şəffaf seçki keçirməyə qadir olduğumuzu yenidən təsdiqləyəcəyik.

**Müsahibəni qələmə aldı:**
**Əliqismət BƏDƏLOV,**
**“Xalq qəzeti”**